

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 159 (23.801)

*1 sentyabr 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Meliorasiya sahəsində görülən işlər bəhrələrini verir



***Cəmiyyətin inkişafında təbii ehtiyatlardan səmərəli istifadə edilməsi də mühüm şərtlərdən biridir. Bunlar içərisində yerüstü və yeraltı sular əhəmiyyətli yerə malikdir. Ona görə də su ehtiyatlarının mühafizə edilməsi və qorunması qarşıda duran mühüm vəzifələrdən biridir.***

Su ehtiyatlarının başqa təbii ehtiyatlara görə özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərdən biri də su ehtiyatlarının fasiləsiz bərpa olunmasıdır. Bununla da təbiətdə su dövranı daim təkrar olunur. Muxtar respublikamızın ərazisi quru, rütubətli, subtropik, dağlıq və digər zonalara bölünür ki, burada da müxtəlif torpaq örtüyünün, bitki, heyvan aləminin inkişafına şərait yaranır. Belə bir şəraitin yaranması əraziyə düşən yağmurun miqdarından, yağma vaxtından, xarakterindən və ərazidə buxarlanmanın dərəcəsindən asılıdır. Təbii sərvətləri ilə zəngin olan muxtar respublikamızda son illər ərzində su təchizatının yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Nəticədə, diyarımızda su təminatı dünyada gedən su qıtlığının əksinə olaraq ilbəil yaxşılığa doğru dəyişir.

Bunun ifadəsidir ki, son üç il ərzində qiymətli su mənbəyi sayılan, hidrotexniki qurğu olan 44 ədəd kəhriz təmir edilərək istismara tam yararlı hala gətirilib. Bəhs olunan dövrdə Şərur rayonunda 1, Kəngərlidə 27, Babək rayonunda 1, Şahbuzda 3, Culfa rayonu üzrə 1, Ordubadda 11 kəhriz yenidən istifadəyə verilib.

Muxtar respublika əhalisinin içməli su ilə təminatının davamlılığı istiqamətində görülən işlərin də həcmi getdikcə artır. Artıq Şərur rayonunun Şərur şəhəri və onun ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının birinci mərhələsi başa çatdırılıb, Zeyvə, Düdəngə, Cəlilkənd, Xələc, Arbatan, Kosacan və Sərxanlı kəndlərinə su çəkilib. Şərur şəhər sutəmizləyici qurğular sistemi istifadəyə verilib.

Babək rayonunun Nehrəm qəsəbəsində, Şəkərabad, Naxışnərgiz, Hacıvar, Nəzərabad, Aşağı Buzqov, Gülşənabad kəndlərində, Ordubad rayon mərkəzində, Şəhriyar qəsəbəsində, Nüsnüs, Yuxarı Əndəmic, Dəstə, Vənənd, Culfa rayonunun Əbrəqunus, Saltaq yaşayış məntəqələrinə içməli su xətləri çəkilib.

Əkin sahələrini suvarma suyu ilə təmin etmək, suvarmanı yaxşılaşdırmaq məqsədilə muxtar respublika üzrə 12, o cümlədən Şərur rayonunda 5, Babək rayonunda 4, Sədərək rayonunda 3 subartezian quyusu qazılıb. Babək, Ordubad və Şahbuz rayonlarının hər birində 1 ədəd olmaqla, 3 subartezian quyusu bərpa edilərək istifadəyə verilib.

Şərur rayonunun Zeyvə kəndində qapalı suvarma sistemi yaradılıb, Danyeri kəndində nasos stansiyası, Arpaçayda üç, Axura selovunda isə bir istiqamətləndirici bənd tikilib.

Ordubad rayonunun Düylün kəndində suvarma üçün boru xətti çəkilib, Aza kəndinin suvarma axın yeri dəyişdirilib, Vənəndçayda istiqamətləndirici bənd yaradılıb, Biləv su kanalının tikintisi başa çatdırılıb.

Culfa rayonunun Dizə kəndinə suvarma üçün boru xətti çəkilib, Daşarx kanalının bir hissəsi dəyişdirilib, Saltaq kəndində qapalı, Əbrəqunus kəndində isə açıq drenaj xətləri çəkilib.

Babək rayonunun Hacıvar kəndində açıq, Babək qəsəbəsində 1 açıq, 1 qapalı drenaj xətti çəkilib. Sirab, Qahab və Payız selovlarında istiqamətləndirici bənd tikilib, Nehrəm qəsəbəsində, Güznüt kəndində hər birində bir, Hacıvar kəndində iki drenaj kanalının tikintisi başa çatdırılıb. Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarında nasos stansiyası tikilib.

Son illərdə muxtar respublikada su sistemlərinin tətbiqi davamlı xarakter alıb. Onlardan biri də qapalı suvarma şəbəkəsidir. Belə şəbəkə sistemi su itkisinin qarşısının alınmasında, suvarmanın yaxşılaşdırılmasında, istifadə olunmayan torpaqların əkin dövriyyəsinə daxil edilməsində mühüm əhəmiyyətə malikdir. Kəngərli rayonunun ərazisində 310 hektar sahədə, Şahbuz rayonunun Türkeş, Sələsüz, Mərəlik kəndlərində 275 hektar sahədə qapalı suvarma şəbəkəsinin yaradılması öz bəhrəsini verib.





Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarında qapalı drenaj xətti çəkilib. Hər il olduğu kimi, cari ildə də yaz tarla işləri başlanana qədər muxtar respublikanın bütün kəndlərinin ərazisində kanal və arxlar lildən təmizlənib. Göründüyü kimi, muxtar respublikada aparılan düzgün və məqsədyönlü tədbirlərin nəticəsidir ki, su qıtlığı, demək olar ki, hiss edilmir. Daha dəqiq desək, su təsərrüfatında görülən işlər bəhrələrini verib. Torpaq mülkiyyətçiləri hər il yüksək nəticələr qazanırlar.

Bu gün dünyada baş verən qlobal istiləşmə su ehtiyatlarının azalmasına da öz təsirini göstərib. Odur ki, muxtar respublika sakinləri böyük zəhmət və yüksək maliyyə vəsaiti hesabına diyarımızın içməli və suvarma suyu ilə təminatını görür və bu qiymətli sərvətdən qənaətlə və səmərəli istifadə edilməsini, onun çirklənmədən qorunmasını və mühafizə olunmasını özlərinin vətəndaşlıq borcu sayırlar.

**Baxşəli MAZANOV**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

## Maliyyə Nazirliyində iclas olub

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclasda nazir Rafael Əliyev çıxış edərək aidiyyəti üzrə tapşırıqlar verib.*



Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırıqları diqqətə çatdıran maliyyə naziri qeyd edib ki, payız-qış mövsümündə diqqətdə saxlanılacaq birinci məsələ elektrik enerjisi və təbii qaz təchizatıdır. Çünki muxtar respublikada məskunlaşmanın artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə və təbii qaza olan tələbatı ilbəil artırır.

Qeyd olunub ki, Ali Məclisin keçirdiyi müşavirədə də deyildiyi kimi, elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimuma endirilməsi diqqətdə saxlanmalı, enerji israfçılığının və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması üçün nəzarət tədbirləri gücləndirilməli, qış mövsümündə əhalinin təbii qaza olan tələbatı düzgün müəyyənləşdirilməli, qaz təchizatı sistemi texniki baxışdan keçirilməlidir. Həmçinin texniki itki normalarının minimal həddə saxlanılmasına diqqət artırılmalı və qanunsuz istifadə hallarına yol verilməməli, nəzarət gücləndirilməli, işçilər müvafiq geyim və avadanlıqlarla təmin olunmalıdırlar.

Vurğulanıb ki, payız-qış mövsümündə əsas diqqət yetirilən sahələrdən biri də kommunal-təsərrüfat sistemidir. Bütün yaşayış məntəqələrində mövsümə hazırlıq işləri çərçivəsində qazanxanalar saz vəziyyətə gətirilməli, onların təbii qazla yanaşı, mazut və dizel yanacağı ilə də işləyə bilməsi təmin edilməlidir. İctimai yaşayış binalarında mövsümi hazırlıq işləri görülməli, yolların qar və buzdan təmizlənməsi üçün kommunal xidmət texnikaları saz vəziyyətə gətirilməlidir.

Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda enerjidən istifadə zamanı qənaət tədbirləri çərçivəsində limitlərin müəyyən olunmasının zəruriliyini bildirən maliyyə naziri xərclərin maliyyələşdirilməsi zamanı israfçılığın qarşısının alınması, limitlər daxilində səmərəli maliyyələşdirilmənin təmin edilməsi, eyni zamanda limitlərə elektron nəzarətin tətbiq olunması istiqamətində aparılan işlərin yekunlaşması barədə tapşırıqlar verib.

✍ **Nail ƏSGƏROV**

## Əmək miqrasiyası sahəsində qanunvericiliyin tənzimlənməsinə həsr olunmuş tədbir



*Naxçıvan Biznes Mərkəzində Dövlət Miqrasiya Xidməti və İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyəti ilə məşğul olmasının hüquqi tənzimlənməsi" mövzusunda tədbir keçirilib.*

Tədbirdə iqtisadiyyat nazirinin müavini Anar Əhmədov və Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov çıxış edərək bildiriblər ki, bu gün müasir müəssisələrin, yeni iş yerlərinin açılması, məşğulluğun təmin olunması sahəsində sistemli tədbirlərin həyata keçirilməsi, investisiya fəallığının güclənməsi, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması, eyni zamanda təhlükəsizliyin və ictimai-siyasi sabitliyin mütləq surətdə təmin edilməsi əməkçi miqrantların muxtar respublikamıza olan marağını və səfər etmə niyyətini daha da artıraraq sahibkarlığın formalaşmasına güclü təkan verib, miqrasiya proseslərini daha da sürətləndirib.

Dövlət Miqrasiya Xidmətinin inspektoru Həmid Muxtarlı diqqətə çatdırıb ki, bu gün muxtar respublikada dövlət miqrasiya siyasətinin uğurla həyata keçirilməsini şərtləndirən amillərdən biri də mühüm əhəmiyyətə malik olan Dövlət proqramlarının vaxtında və dəqiq icrasıdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində əcnəbilərin də muxtar respublikamızda əmək fəaliyyəti ilə məşğul olması daim diqqət mərkəzində saxlanılıb, əməkçi miqrantların muxtar respublikada qanunsuz olaraq əmək fəaliyyətinə cəlb edilməsinin qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılıb, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilib.

Sonra İqtisadiyyat Nazirliyinin əməkdaşı Xudakərim Məmmədov muxtar respublikada məşğulluğun artırılmasında sahibkarlığın rolu barədə geniş məlumat verib.

Əmək miqrasiyası sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə inzibati məsuliyyət məsələsinə toxunan xidmətin baş inspektoru Tural Bayramov bildirib ki, muxtar respublikada iş icazəsi əsasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olan əməkçi miqrantların hüquqlarının yüksək səviyyədə qorunması, habelə bu sahədə qanunvericiliyin tələblərinin pozulması hallarının vaxtında aşkarlanması və zəruri tədbirlərin görülməsi xidmət tərəfindən uğurla icra edilməkdədir.

Tədbirdə əcnəbilərə iş icazəsinin verilməsi və müddətinin uzadılması, həmçinin əmək miqrasiyası kvotası ilə bağlı ünvanlanan suallar cavablandırılıb, məlumatlar slayd vasitəsilə tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda sahibkarlara bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Baytarlıq idarəsi üçün tikilən binada əsas işlər başa çatdırılıb

Baytarlıq qurumlarının iş şəraitinin yaxşılaşdırılması məqsədilə Kəngərli rayonunda Baytarlıq İdarəsi üçün yeni inzibati bina inşa olunur.

Bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Zirzəmi hissəsində arxiv, iş otaqları, süni mayalanma avadanlıqlarının və dərmanların saxlanc otaqları, yeməkxana və qazanxana yerləşəcək. Birinci mərtəbədə iş otaqları, laboratoriya, patoloji materialların qəbulu otağı, Bakteriologiya və Serologiya şöbələri, ikinci mərtəbədə isə iş otaqları, baytar həkim və sahə baytar məntəqəsi üçün otaqlar olacaqdır.

Yeni inzibati binanın inşası Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilir. İndiyədək binanın tikintisində əsas işlər başa çatdırılıb. Hazırda binanın daxilində və fasad hissədə son tamamlama işləri aparılır. Binanın həyətində isə abadlıq işlərinə başlanılıb, yerə kilid daş döşənir, bördür düzülür, piyada yolu salınır, su və işıqlandırma sistemləri çəkilir. Tikintidə işlər sürətlə və keyfiyyətlə aparılır.

Obyektdə kifayət qədər işçi qüvvəsi çalışır. Onlar inşaat sektoru üçün nəzərdə tutulmuş geyim formaları, lazımi avadanlıqlarla təmin olunublar.

**Babək İSMAYILOV**

“Şərq qapısı” – 100

# Xuraman İsmayılqızı: Amalına, ideyasına sadiq “Şərq qapısı” qəzeti bu günümüzü gələcək nəslə çatdıracaq birəsrlik salnamədir

***Həmsöhbətim 1967-2001-ci illərdə “Şərq qapısı” qəzetində fəaliyyət göstərən qadın jurnalistlərimizdən biri Sadiqova Xuraman İsmayıl qızıdır (Xuraman Məmmədova). Yazacağım məqalə üçün qəzetin 90-cı illərdəki səhifələrini vərəqləyəndə Xuraman Sadiqova imzasına, necə deyərlər, hər addımbaşı rast gəldim. Qəzetin uzun illər məhsuldar işçisi olmuş bu xanımı axtarıb tapdım. Çox çətin olmadı. O, hazırda bu gün bizim də hər nömrəsini maraqla izlədiyimiz “İki sahil” qəzetində çalışır.***

Söhbətimizə keçməzdən əvvəl Xuraman xanım haqqında qısaca məlumat vermək istərdim. O, 21 sentyabr 1951-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. Naxçıvan şəhərindəki 2 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinə qəbul olunub və 1974-1975-ci tədris ilində həmin ali məktəbin məzunu kimi “Şərq qapısı” qəzetində oxucu olaraq fəaliyyətə başlayıb. Sonrakı illərdə qeydiyyatçı, ədəbi işçi, baş ədəbi işçi kimi fəaliyyətini davam etdirib. Çalışqanlığı və işə məsuliyyəti nəzərə alınaraq qəzetin Sosial həyat şöbəsinə müdir təyin edilib. Onun yaradıcılığında üstünlük təşkil edən publisistik yazılarda cəmiyyətdə baş verən hadisələrin işıqlandırılması, dövlətçilik maraqlarının qorunması, ailə, məişət məsələləri, sadə insanların əməyə bağlılığı, onların qazandıqları nailiyyətlər, milli adət-ənənələrin təbliği, gənclərin peşəyönümü üzrə istiqamətləndirilməsi, elm, mədəniyyət və incəsənət kimi aktual məsələlər öz əksini tapmaqla vaxtilə özünə oxucu rəğbəti qazanıb. Ailə vəziyyəti ilə əlaqədar olaraq 2002-ci ildə Bakı şəhərinə köçən Xuraman Məmmədova həmin vaxtdan etibarən “İki sahil” qəzetində fəaliyyətini davam etdirir. Xuraman xanım muxtar respublikamızda gedən abadlıq, quruculuq, inkişaf proseslərini daim izləyir və çalışdığı qəzetdə işıqlandırır. Elə jurnalist peşəkarlığının nəticəsidir ki, onun fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, “Əməkdar jurnalist” fəxri adına layiq görülüb, həmçinin Həsən bəy Zərdabi mükafatı laureatıdır.



*– Xuraman xanım, sizinlə həmsöhbət olduğum üçün çox şadam. Əvvəlcə, “Şərq qapısı” qəzeti ilə bağlı fikirlərinizi öyrənmək istərdim...*

– Sağ olun, mən də şad oldum. XX əsrin əvvəllərində, 1921-ci il noyabr ayının 9-da böyük mütəfəkkirlər yetişdirən Naxçıvanda “Cavanlar həyatı” adı ilə ilk mətbu orqan kimi nəşrə başlayan, “Füqəra səsi” ilə yoluna davam edən “Şərq qapısı” qəzeti ulu öndər Heydər Əliyevin təbirincə desək, tarixi nailiyyətimiz olan müstəqillik illərində demokratiyanın əsas şərtlərindən olan söz, mətbuat azadlığının təbliği, plüralizmin qorunması istiqamətində böyük yol keçərək obyektivliyi, operativliyi ilə fərqlənmişdir.

*– Siz burada uzun illər çalışmışsınız. Yaddaşınızdakı hansı xatirələri bizimlə bölüşə bilərsiniz?*

– Bəli, 55 illik jurnalistlik fəaliyyətimin 35 ili həmişəcavan olan “Şərq qapısı” qəzeti ilə bağlı olduğu üçün özümü xoşbəxt sayıram. Onu da qeyd edim ki, redaksiyada birgə çalışdığım Afət Məmmədovla ailə həyatımın təməli də elə bu qəzetdə qoyulub. Bu baxımdan illərdən bəri çalışdığımız kollektivin əməkdaşları ilə bağlı hadisələri xoş xatirə kimi yad edirik. Redaksiyada yaradıcılıqla bağlı apardığımız müzakirələr, hər səhər keçirilən beşdəqiqəlikləri, şirin xatirələri yada salır, həyatdan köçənləri rəhmətlə anırıq.

*– Maraqlıdır, jurnalistlik fəaliyyətiniz, qəzetlə əməkdaşlığınız necə başladı?*

– Atamın yolunu davam etdirmək üçün jurnalist olmaq istəmişəm. Bu da səbəbsiz deyil. Hələ orta məktəbdə oxuyanda “Şərq qapısı” qəzetinin Məktublar şöbəsinin müdiri olan atamın yanına gələndə yaranan bu maraq məni jurnalist peşəsinə bağladı. Bu qəzetdə çalışdığım 35 il mənim üçün həyat məktəbi oldu. Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdəki fəaliyyətim isə mənim üçün siyasi hazırlıq, yaradıcılıq məktəbi oldu. Qəzetlə bağlı ən xoş, yaddaqalan xatirələrim də o illərə söykənir. Qeyd edim ki, həmin vaxt qəzet redaksiyasında səmimi, işgüzar kollektiv formalaşmışdı.

*– Beləliklə, “Şərq qapısı”nın həyatında da yeni dövr başlandı...*

– Bəli, Moskvadan Bakıya, sonra Naxçıvana qayıdışı ilə bütünlükdə ölkədə baş verən hadisələri uzaqgörən zəkası, dövlətçilik təcrübəsi ilə təhlil edən, Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə tarixi xidmətlər göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən görkəmli dövlət xadiminin 1990-1993-cü illərdəki siyasi fəaliyyətinin ensiklopediyası olan “Şərq qapısı”nın həyatında da yeni dövr başlamış, qəzet Azərbaycanın çoxsaylı mətbu orqanları arasında birinci olaraq ölkəmizi düçar olduğu bəlalardan xilas etmək qüdrətinə malik, tanınmış dövlət xadiminin xilaskarlıq missiyasını, liderlik məharətini işıqlandırmış, ulu öndərin tarixi xidmətlərinin təbliği yolunda inamla addımlamışdır.

***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm”*** söyləyən ulu öndər üçün bu qəzet ideoloji tribuna, Naxçıvandakı fəaliyyətinin yaddaş xronologiyasıdır. Torpaqlarımızın Ermənistan silahlıları tərəfindən işğal olunduğu bir dövrdə Naxçıvanın qorunması birbaşa ulu öndərin siyasi iradəsi, qətiyyəti ilə bağlıdır.

*– Ulu öndərin Naxçıvana gəlişi ilə bağlı yaranan mənzərəni öz gözlərinizlə görməniz yaradıcı insan kimi jurnalistika fəaliyyətinizə necə təsir etdi?*

– 1990-cı ilin 22 iyul günü tarixə təkcə naxçıvanlıların deyil, bütünlükdə Azərbaycan xalqının yaddaşında ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasının başlanğıcı kimi yazılıb. Həmin gün doğma ocağı Naxçıvana qayıdan dahi şəxsiyyəti həmyerliləri böyük sevinclə qarşıladılar. Dahi liderlə Naxçıvan şəhərindəki mərkəzi meydanda keçirilən görüşə 100 minə yaxın həmyerlisi toplanmışdı. Müdrik şəxsiyyətin ümidverici sözləri jurnalist kimi sonrakı fəaliyyətimizdə qəzetimizin bütün əməkdaşlarına bələdçi oldu. O illərdə nəinki ölkə, hətta xarici ölkələrin jurnalistləri belə, Azərbaycanın ictimai-siyasi həyatında baş verənləri, Ermənistanın işğalçılıq siyasətinin əsl mahiyyətini öyrənmək üçün Naxçıvana gəlir, bu müdrik şəxsiyyətlə görüşür, Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, artıq siyasi və hərbi qələbə nəticəsində həll edilən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri zəngin dövlətçilik təcrübəsinə malik ulu öndərdən öyrənirdilər. O illərdə hakimiyyətdə olan AXC – Müsavat cütlüyünün muxtar respublikaya, Ali Məclisin Sədri, ulu öndər Heydər Əliyevə qarşı qərəzli münasibəti, qısqanclığı bəlli idi. Ulu öndərə xalqın məhəbbətini özlərinin məhvi kimi anlayan səbatsızların ümummilli liderə təzyiqlərinin əsasında da layiq olmadıqları kreslolarını itirmək qorxusu dayanırdı. Bir gün Litvadan gələn müxbirlərdən ilk onu soruşdum ki, nə üçün bura gəlibsiniz? “Gəldik, bir gün Bakıda olduq, sonra Naxçıvana gəldik. Bilirsiniz, indi Azərbaycanda ən böyük dəyişikliklər Naxçıvanda gedir. Bunu biz eşitmişik, ona görə də Naxçıvana gəlmişik”, – dedi. Ulu öndərin dövlətçilik təcrübəsini, uzaqgörən siyasətini təsdiqləyən belə etiraflar çoxdur. Onun ideyalarını təbliğ etdiyim, o tarixi anların şahidi olduğum üçün özümü xoşbəxt hesab edirəm. Onun sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarının, müzakirə olunan məsələlərin hər biri tarixi əhəmiyyəti ilə seçilməklə, qəzeyimizin etibarlı qaranti idi. Bu möhtəşəmlikdən təşvişə düşənlərin qəzetimizin əməkdaşlarına təzyiqlərinin bir səbəbi də ulu öndərin bütün siyasi fəaliyyətinin qəzetdə işıqlandırılması, əməkdaşlarımızın sevimli liderləri ətrafında sıx birləşmələri, onun siyasətini dəstəkləmələri idi. Bu yerdə bir hadisəni xatırladım... Növbəti iş günü yenicə başlamışdı. Çiynində avtomat olan bir nəfər redaksiyaya gələrək ulu öndər Heydər Əliyevi müdafiə etdiyimiz üçün hamını qorxutdu. Hətta güllələyəcəyi ilə təhdid etdi. O vaxtlarda qəzetin redaktor müavini olan rəhmətlik Elxan Əliyev ağsaqqal kimi onlara səhv etdiklərini söylədi, dövlətçiliyə xəyanət yolunda çəkinməklərini tövsiyə etdi. O dövrdə muxtar respublikada bütün hadisələr ulu öndərin ideyaları, tövsiyələri əsasında cərəyan etdiyi üçün onun cəsarəti, xalq üçün göstərdiyi fədakarlığı hamı üçün nümunə idi. Ulu öndərin təşəbbüslərinin, xalqa xidmətinin nümunələri olan və müstəqilliyimizin əbədiliyinin təminatına yönəldilən tarixi qərarlar, həyata keçirilən tədbirlər demək olar ki, bütün yazılarımızın ana xəttini, ideyasını təşkil edirdi. Qəzetimizin bütün əməkdaşları silahları olan qələmləri ilə ulu öndərin ətrafında sıx birləşir, onun siyasətinin təbliği üçün var qüvvə ilə çalışırdılar.

*– Bəs siz nə vaxtsa ümummilli lider Heydər Əliyevlə görüşmək şərəfinə nail ola bildiniz?*

– ...1992-ci il oktyabr ayının 5-i idi. Ali Məclisin iclas salonunda ulu öndərin təşəbbüsü ilə Türkiyədə təhsil almağa göndərilən bir qrup naxçıvanlı gənclə görüş keçirildi. Sonra Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə onlarla görüşə gələcək ulu öndəri foyedə gözləyirdik. Yüksək intellektə və qeyri-adi zəkaya malik olduğunu hər məqamda, görüşlərdə, məntiqli çıxışı ilə təsdiqləyən, gənclərin hamisi olduğunu onlara sevgisi ilə bildirən görkəmli dövlət xadimi foyeyə daxil olan kimi hamı ilə görüşdü, hal-əhval soruşdu. Kimlərin hansı təşkilatı təmsil etməsi ilə maraqlandı. Sonra mənə müraciətlə “Gəl görək, jurnalist xanım, bu uşaqlara xeyir-dua verək”, – dedi. Naxçıvanlıların yadında olar. Erməni silahlılarının qəfil hücumu nəticəsində yaralanan yerli sakinlərin müalicə üçün Türkiyəyə göndərilməsini təşkil edən ulu öndər onların səhhəti ilə maraqlanırdı. Xəstələri yolasalma mərasimində iştirak etdiyim üçün yaralıların, onların ailələrinin ulu öndərə minnətdarlıq dolu sözlərinin də şahidi oldum. O ağır illərdə bir nəfər kimi xilaskarlarının ətrafında birləşən naxçıvanlıların hər biri, o cümlədən qadınlar torpaqları uğrunda canından keçməyə hazır əsgər idilər. Qadınlar cəmiyyətinin bir qrup üzvü ilə birlikdə əsgərlərə mənəvi dəstək olmaq üçün dəfələrlə cəbhə bölgələrində olmuşam. Bir dəfə Sədərəyə getmişdik. “Əjdaha”, “Mil”, “Ucubiz” yüksəkliklərində növbə çəkən əsgərlərlə görüş keçirdik, şəraitləri ilə maraqlandıq. Ozamankı iqtidarın səbatsızlığı üzündən dağınıq, ordu adlandırmaq belə, mümkün olmayan əsgərlərin ərzaqla təminatı, şəraiti ürəkaçan səviyyədə deyildi. Maraqlandıq, dedilər ki, kəndin lap kənarında yerləşən ikimərtəbəli ev (əgər səhv etmirəmsə, ev sahibinin adını Sabir dedilər) çörək zavodunun müdirinin şəxsi evidir. Hərbi hissənin istifadəsinə verib. Əsgərlərlə görüşdə təhlükəsizliyin təminatı baxımından bizə dedilər ki, 4-5 nəfər bir yerdə durmayın. Ermənilər həmin dəqiqə atəş açırlar. Amma heç kim nə qorxdu, nə də çəkindi. Orada rastlaşdığımız bir rus zabitinin sözləri indi də xatirimdədir. O bildirdi ki, illərdən bəridir, bir çox şəhərlərdə xidmət etmişəm. Yeganə xalq sizsiniz ki, atəş gələn tərəfdən uzaqlaşmaq əvəzinə, güllə səsi eşidilən səmtə qoşursunuz, kiməsə kömək etməyə can atırsınız. Bu, multikultural ənənələrə sadiq Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin nümunəsidir. Belə humanist xarakterə, xeyirxah əmələ malik bir xalqın nümayəndəsi olduğumuz üçün qürur duyduq.

*– Hər an düşmən silahının açılacağı gözlənilən cəbhə bölgəsindən xatirələriniz, yəqin ki, çox olar...*

– İcazə verin birini də bölüşüm sizinlə. Əsgərlərlə növbəti görüşümüz Yuxarı Buzqov kəndində oldu. Bu hərbi hissə, demək olar ki, ermənilərlə üz-üzə mövqedə yerləşirdi. Hamının “RAF” adlandırdığı 12 nəfərlik balaca avtobusla kəndə gedəndə yolda heç bir nəqliyyat vasitəsilə rastlaşmadıq. Ermənilərin hücumlarının intensivləşdiyi, əlavə tələfata yol verilməməsi üçün yollar bağlanmışdı. Bizimlə birgə olan göz həkimi Elmira Əliyeva (indi haqq dünyasındadır) dedi ki, ermənilər yolumuzu kəssələr, özümüzü qorumaq üçün heç nəyimiz yoxdur. Aramızda nisbətən cəsur olan rəhmətlik şairə Elmira Qasımovanın “Narahat olmayın, məndə tapança var” sözləri ani təlaşımıza son qoydu. Elmira xanımın həyat yoldaşı hərbçi olduğu üçün onun dediklərinə inandıq və sakitləşdik. Əsgərlərlə görüşüb Naxçıvana qayıtdıqdan sonra Elmira xanım bildirdi ki, mənim silahım yox idi. Sizi təşvişdən qurtarmaq üçün belə dedim. Yəni “deyilən sözə özündə inam yaratmaq həqiqət qədər güclü hissdir” sözlərinin hikməti o anda sınandı.

*– Xuraman xanım, o çətin və məşəqqətli illərin şahidi kimi həmin tarixi sınaq dövrü ilə müqayisədə muxtar respublikamızın bu günü necə görünür?*

– Muxtar respublikanın təhlükəsizliyini təmin edən, insanları üzləşdikləri çətinliklərdən qurtarmaq üçün bütün imkanlardan istifadə edən ulu öndərin ən yaxşı köməkçisi, daim onunla birgə olan, bu gün onun siyasətini, Vətən, xalq üçün gördüyü işləri davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xidmətləri əvəzsizdir. Ümummilli lider Heydər Əliyev məktəbinin yetirməsi kimi ulu öndərin siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin ölkənin daha da qüdrətlənməsi naminə müəyyənləşdirdiyi konseptual proqramlar, islahatlar muxtar respublikanın iqtisadi inkişafı, qüdrətlənməsi, ən ucqar kəndlərin simasının dəyişilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, mədəniyyətin, incəsənətin inkişafı məramına xidmət edir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun fədakarlığı sayəsində bu qədim diyar gündən-günə gözəlləşir, müasirləşir, inkişaf edir. Bu ilin may ayında muxtar respublikaya səfəri zamanı Naxçıvanda aparılan quruculuq işlərini yüksək dəyərləndirən, bir neçə obyektin açılışında iştirak edən Prezident cənab İlham Əliyev görülən işlərlə bağlı məmnunluğunu Azərbaycan Televiziyasına müsahibəsində belə ifadə etmişdir: ***“Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir... Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir... Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir”.*** Prezident cənab İlham Əliyev bu qədim diyarın daim cavanlaşan, müasirləşən simasını muxtar respublika rəhbərinin Vətənə sədaqəti, insanlara qayğısı kimi qiymətləndirir.

*– Naxçıvanlı jurnalistlər Ali Məclis Sədrinin diqqət və qayğısını daim öz üzərlərində hiss edirlər...*

– Ali Məclis Sədrinin mətbuatın inkişafına göstərdiyi diqqət yüksək səviyyədə olmaqla demokratik islahatların tərkib hissəsi olan azad sözə göstərilən qayğıdır. “Şərq qapısı” qəzetinin birəsrlik yubileyinə hazırlığın yüksək səviyyədə təşkili bu diqqətin ifadəsidir. Doğma ocağım Naxçıvana hər gəlişimdə, ilk növbədə, mənim üçün hər zaman əziz olan “Şərq qapısı” qəzeti redaksiyasına da baş çəkir, keçmişləri xatırlayır, yaradıcı kollektivin rahat işləməsi üçün yaradılan şəraitlə qürur duyuram. 2010-cu ildə qəzet üçün yeni binanın istifadəyə verilməsi, ən müasir informasiya texnologiyaları ilə təmin olunması sevindirici haldır. Bütün əməkdaşların rahat çalışması üçün yaradılan şərait qəzetin simasını dəyişmişdir. Bir zamanlar qurğuşun iyi verən mətbəənin əvəzinə ən müasir çap ləvazimatları ilə təmin olunan yeni mətbəənin təşkili, qəzetin rəngli nəşrinə başlanılması milli mətbuata, yaradıcı insanlara, informasiyaların obyektivliyinə və operativliyinə göstərilən diqqət və qayğıdır. Bütün bunlar isə qəzetin daha peşəkar səviyyədə nəşrə hazırlanmasına öz müsbət təsirini göstərir. Qəzeti müntəzəm izləyən bir jurnalist kimi son illərdə “Şərq qapısı”nın səhifələrində aktual və jurnalistika baxımından peşəkar yazıların dərc olunması, ictimai-siyasi təhlili məqalələrin hazırlanması, xüsusilə gənc qəzet əməkdaşlarının uğurları məni çox sevindirir.

*– Doğma qəzetlə bağlı son sözünüz...*

–...İllər arxada qalıb. 100 illik tarixi olan doğma qəzetimin 35 ilində imzam olduğu üçün fəxr edirəm. Ulu öndər Heydər Əliyevin ***“Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir”*** sözləri bu gün artıq reallıqdır. Dünya sivilizasiyasına böyük töhfələr verən Naxçıvan ziyalılarının ideoloji tribunası olan “Şərq qapısı” qəzeti isə bu yüksəlişin aynası, bu günümüzü gələcək nəslə çatdıracaq birəsrlik yaşı olan tarixdir. Bu tarixə dəyər verib yüzillik yubileyin dövlət səviyyəsində qeyd olunması ilə bağlı Sərəncam imzalanması isə muxtar respublika rəhbərinin jurnalistikaya, mətbuata böyük dəyər verməsinin, ulu öndər Heydər Əliyevin muxtar respublikada mətbuat sahəsindəki ideyalarının da sədaqətlə davam etdirilməsinin ifadəsidir.

*–Maraqlı müsahibə üçün çox sağ olun.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Taktiki-xüsusi təlim keçirilib





Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində taktiki-xüsusi təlim keçirilib. Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun aviabazasında xidmət edən bir hərbi qulluqçu şərti düşmənin təxribat-diversiya qrupu tərəfindən qaçırılır. Terrorçular qaçırdıqları pilotla birlikdə tərk edilmiş binada gizlənirlər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimdə şəxsi heyətin əsir və girovların azad edilməsi üçün binalarda döyüş əməliyyatlarının aparılması bacarıqları yoxlanılıb.

Təxribatçıların gizləndikləri binada səssizcə mövqelənən snayper cütlükləri qrupların təhlükəsiz hərəkətini təmin etmək üçün fəaliyyət göstərirlər.

Xüsusi təyinatlı qruplar terrorçuların gizləndikləri binaya gizli şəkildə daxil olaraq təxribatçıları zərərsizləşdirməyə başlayırlar.

Antiterror əməliyyatını itkisiz başa vurmaq və qaçırılmış pilotun sağ şəkildə azad edilməsi üçün digər bir qrup da helikopterlə binaya endirilir.

Xüsusi təyinatlılarımız şərti düşmənin təxribat-diversiya qrupunu zərərsizləşdirmək üçün antiterror əməliyyatları zamanı binalarda tətbiq edilən yaxın məsafədə döyüş elementlərini yerinə yetirirlər.

Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlı qruplar terrorçuları tam tərkibdə məhv edir, aviabazanın pilotunu azad edərək kimliyini dəqiqləşdirir və əməliyyat rayonundan uzaqlaşırlar.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə sarsılmaz qardaşlığın nümunəsi olan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının əhəmiyyətindən danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev taktiki-xüsusi təlimdə xüsusi təyinatlı bölmələrin şəxsi heyətinin yüksək peşəkarlıq, vətənpərvərlik və döyüş təcrübəsi nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## Təlimlərə yekun vurulub

*Muxtar respublika gömrük orqanlarının əməkdaşları üçün “Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili” mövzusunda təlimlər keçirilib. Naxçıvan gömrük sistemində xidmətin keyfiyyətinin artırılması məqsədilə ardıcıl olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində təşkil olunan təlimlərə Sədərək, Culfa, Şahtaxtı və Hava limanı gömrük postlarında xidmət edən 91 əməkdaş cəlb olunub.*

Bir ay davam edən təlimlər zamanı əməkdaşlar üçün metal dedektorlardan istifadə qaydaları, rentgen-nəzarət qurğusundan istifadə etməklə əldə olunan təsvirlərin analizi, vətəndaşlarla rəftar və onların müşayiət olunan baqajlarının müayinəsi, əşyalarda gizli saxlanc yerləri, təcrübədə aşkarlanmış faktların analizi, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən gömrük sərhədindən keçirilməsi qadağan olunan və mülki dövriyyəsi məhdudlaşdırılan malların, narkotik vasitələr və psixotrop maddələrin aşkarlanması barədə dərslər və praktik məşğələlər keçirilib.

Təlim proqramına uyğun olaraq stasionar və portativ metal dedektorlardan istifadə, o cümlədən rentgen-nəzarət qurğusunun istismarı zamanı təsvirlərin analizi üzrə qiymətləndirmələr aparılıb.

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində sözügedən təlimlərdə yüksək nəticə göstərmiş əməkdaşlarla görüş keçirilib. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli dövlətimiz tərəfindən gömrük orqanlarında uğurla həyata keçirilən infrastruktur və struktur islahatları ilə yanaşı, kadr potensialının gücləndirilməsi üçün də ardıcıl işlərin görüldüyünü qeyd edib. Vurğulanıb ki, gömrük orqanlarında yaradılan yüksək iş şəraiti, ən müasir texniki nəzarət vasitələrinin işdə tətbiqi xidmətin yüksək səviyyədə təşkilinə imkan yaradır. Kadrların ixtisaslaşması və peşəkarlıq səviyyəsinin artırılması gömrük nəzarətinin keyfiyyətini daha da yüksəldir. İstər avtonəqliyyat vasitələri üzərində gömrük baxışının aparılması, istərsə də fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili mövzusunda keçirilən təlimlərin müsbət nəticələri özünü iş prosesində, o cümlədən hüquqpozmalara qarşı mübarizə sahəsində aşkarlanan faktların sayında da göstərir.

Komitənin Texniki nəzarət vasitələrinin tətbiqi şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Əkrəm Məmmədov keçirilmiş təlimlərlə bağlı məlumat verərək bildirib ki, rentgen təsvirlərinin analizinin qiymətləndirilməsi “Simfox” proqram təminatı vasitəsilə aparılıb. Belə ki, əməkdaşlar proqram təminatından istifadə etməklə gömrük sərhədindən keçirilməsi qadağan olunmuş malların virtual rentgen təsvirlərini aşkarlamağa çalışıblar. Qeyd olunub ki, gömrük əməkdaşlarının diqqətcillik səviyyəsinin daim yüksək tutulması və peşəkarlığının artırılması məqsədilə təlimlərin planlaşdırılmış növbəti mərhələlər üzrə davam etdirilməsi nəzərdə tutulur.

Sonra təlimlərdə yüksək nəticə göstərmiş əməkdaşlara sertifikatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Azərbaycan dünyada tolerantlıq nümunəsidir

Tolerantlıq Azərbaycan xalqının zənginliyinin təzahürüdür. Ölkəmizdə bütün dünyaya nümunə ola biləcək tolerantlıq və multikulturalizm ənənəsi formalaşıb. Əmin-amanlıq hökm sürür. Azərbaycanın bu nümunəvi modelini qorumaq, yeni nəsillərə ötürmək hər birimizin borcudur.

Tolerantlıq müsbət keyfiyyət olmaqla bərabər, həm də Azərbaycan xalqının həyat tərzidir. Tarixboyu Azərbaycanda yaşayan ayrı-ayrı millətlərin nümayəndələri bir ailənin üzvləri kimi qarşılıqlı hörmət şəraitində yaşamışlar.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz öz milli dəyərlərinə söykənən dövlətə çevrildi. Vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olundu, məscidlər, mədrəsələr, kilsələr yenidən bərpa olunmağa başladı. Bütün bu nailiyyətlər ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Ümummilli lider Azərbaycanda yaşayan hər bir millətin hüquq bərabərliyinin qorunması məsələsini həll etdi. ***“...Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik”.***

Azərbaycanda yaşayan katoliklər, pravoslavlar, yəhudilər və digər dinlərə etiqad edən insanlar öz inanclarında azaddırlar. Burada məscid, kilsə və sinaqoqlar yanaşı fəaliyyət göstərirlər. Dövlət başçısının təşəbbüsü ilə burada yaşayan 20 mindən çox dağ yəhudisi üçün paytaxtın mərkəzində yeni sinaqoq inşa olunub. Dövlətimiz tərəfindən qorunub saxlanılan və Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş xristian pravoslav məbədləri, kilsələr bunların bariz nümunəsidir.

Prezident cənab İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfranslarının birində vurğulamışdır: ***“Bizim xalqlar sülh şəraitində yaşamalıdırlar. Azərbaycanda yaşayan bütün millətlər eyni hüquqlara malikdirlər. Azərbaycanda fərqli dildə danışan insanların hər cür hüquq və imtiyazları mövcuddur. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır”.***

İtirilmiş Azərbaycan torpaqlarının geri qaytarılması tarixi bir hadisə oldu. Eyni zamanda xalqımızın tolerantlığını, vətənpərvərliyini, dövlətinə, millətinə bağlılığını bir daha nümayiş etdirdi. Ona görə də işğal altında olan torpaqların Azərbaycanın nəzarətinə qaytarılmasında müxtəlif xalqların nümayəndələri iştirak etdilər. Müxtəlif millətlərə mənsub olan Azərbaycan vətəndaşları könüllü olaraq cəbhəyə yollandılar, dəmir yumruq kimi sıx birləşərək düşməni darmadağın etdilər. 44 günlük müharibədə qəhrəman igidlərimiz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında unudulmaz tarix yazdılar. Yazılan bu tarixi hadisəyə görə yüksək dərəcədə tolerant, başqa millətə və başqa dinə mənsub olan insanlara hörmətlə yanaşan Ali Baş Komandanımıza minnətdarıq.

Tolerantlıq Azərbaycan xalqının xarakterik xüsusiyyətidir. Tolerantlıq Azərbaycan xalqının tarixi uğuru olmaqla yanaşı, həm də sabitliyinin təminatıdır. Deməli, Azərbaycan xalqının gələcəyi üçün bu uğuru həmişə qoruyub saxlamalı və möhkəmləndirməliyik.

**Qızıllı ƏLİYEVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti***

*Təhsil millətin gələcəyidir*

## Şahbuzlu məzunlar imtahanda uğurlu nəticələr göstəriblər

***İnsanın zəhməti ilə ərsəyə gələn iş hər zaman sevinc doğurur. Çəkilən zəhmətlər içərisində biri də var ki, onun bəhrəsi üçün 11 il dayanmadan çalışmalı olursan. Bu zəhmət müəllim əməyidir. Onun ən gözəl bəhrəsi isə qəbul imtahanlarında göstərilən nəticələrdir. Bu gün şahbuzlu şagirdlər də bu imtahanlarda yüksək nəticə göstərərək öz müəllimlərinə, valideynlərinə qürur qaynağı olub, başucalığı gətiriblər. Belə ki, 2020-2021-ci tədris ilində rayonda orta ümumtəhsil məktəblərini bitirən 144 məzundan 137 nəfəri ali məktəb tələbəsi olmaq üçün sənəd qəbulunda iştirak edib. Ali məktəblərə qəbul imtahanlarının nəticələrinə əsasən rayonun məzunlarından 21 nəfəri 500-700 intervalında bal toplayaraq müəllimlərini və valideynlərini sevindirib. Topladıqları ballarla bütün Şahbuz rayonuna başucalığı gətirən, 11 il çəkilən zəhmətin bəhrəsi olaraq tələbə adını qazanan bir neçə məzun haqqında oxucularımıza məlumat vermək istəyirəm.***



***Sərcan Məsmalıyev:*** – Mən 2021-ci ildə Keçili kənd tam orta məktəbini bitirmişəm. I ixtisas qrupu üzrə ali məktəbə qəbul imtahanlarında 667,3 bal toplamışam. Orta məktəbdə oxuduğum illərdə həmişə təhsildə diqqət və qayğı görmüşəm. Bizim kəndimiz kimi bütün ucqar kəndlərdə tikilib istifadəyə verilən yaraşıqlı, müasir standartlara cavab verən məktəb binaları məhz bunun bariz nümunəsidir. Biz şagirdlər də bu qayğıya cavab olaraq yaxşı oxumalı və bugünkü nəticələrə nail olmalı idik. Sevinirəm ki, belə də oldu. Bundan sonra təhsilimi Bakı Ali Neft Məktəbində davam etdirib Vətənimə layiqli övlad olmaqla yanaşı, rayonumuzun adını orada da uca tutmağa çalışacağam.



***Mətin Məmmədli:*** – Mən 2004-cü ildə Badamlı kəndində anadan olmuşam. 2010-cu ildə Badamlı qəsəbə tam orta məktəbinin birinci sinfinə qəbul olmuşam. 2021-ci ildə həmin məktəbin XI sinfini bitirmişəm. Uşaqlığımın ən yaddaqalan anları dərslərimi oxuyaraq elmin sirlərinə yiyələnmək istədiyim anlardır. Böyük həvəslə oxudum, öyrəndim və sonda da zəhmətim sayəsində 643 balla tələbə adına layiq görüldüm. Arzum Azərbaycan Dövlət Neft Sənaye Universitetinin tələbəsi olmaqdır. Uğur qazanmağımda mənə dəstək olan valideynlərimin və müəllimlərimin zəhmətinin hədər getmədiyini düşünürəm. Hər kəsin özü üçün xəyal etdiyi bir ömür yolu var. Bu yol gənclik illərindən başlayır. Mən də bu yolun yolçusu kimi çalışacağam ki, təhsil alacağım ixtisasın sirlərinə dərindən yiyələnim. Gələcəyin peşəkar kadrı kimi dövlətimə, Vətənimə layiq olum.



***İnci Həzizadə:*** – Mən Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin yetirməsiyəm. Məktəbimizdə yaxşı təhsil almağımız üçün hər bir şərait yaradılıb. Mən də bunun müqabilində çalışırdım ki, bu məktəbin yüksək bal toplayanları sırasına öz adımı yazdırım. Tələbə adı qazanan abituriyentlərə həmişə qibtə ilə baxırdım. Fikirləşirdim ki, gələcək həyatımda yaxşı bir yer tutmaq üçün, ilk növbədə, tələbə adını qazanmalıyam. Ətrafımda tələbəlik illərini yaşayan tanışlarım isə bunun üçün, ancaq yaxşı oxumağın və əziyyətə qatlaşmağın vacib olduğunu deyirdilər. Mən də həmişə yaxşı oxumağa çalışmışam ki, ali məktəbə qəbul olam. Nəhayət, böyük həvəslə gözlədiyim tələbə adını bu günlərdə qazandım. Seçdiyim ixtisas qrupu üzrə 625 bal toplamışam. Ali təhsilimi Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsində almaq arzusundayam. Topladığım yüksək balla valideynlərimə və müəllimlərimə sevinc bəxş etdim. Və gələcəyim üçün atdığım bu addımda özümü xoşbəxt sayıram. Mən xüsusi olaraq vurğulamağı özümə borc bilirəm ki, ümummilli liderimiz Heydər Əliyev biz gənclərin həyatda uğurlar qazanması naminə müstəqil Azərbaycanda elmin, təhsilin inkişafı üçün çox böyük işlər gördü, əsaslı islahatlar həyata keçirdi. Muxtar respublikamızda da bu ideyalar bu günə kimi davam etdirildiyindən yaxşı oxumaq, uğur qazanmaq üçün nə lazımsa, təmin edilib. Biz tələbə-gənclər də bu böyük qayğıya cavab olaraq bundan sonra da yalnız yüksək təhsil alaraq elmin sirlərinə dərindən yiyələnməliyik.



***Xəzər Məmmədov:*** – İnsan həyatda öz məqsədinə çatmaq üçün çox çalışmalıdır. Mən də təhsil aldığım Keçili kənd tam orta məktəbində gələcək arzularımı reallaşdırmaq üçün yaradılan hər bir şəraitdən lazımınca istifadə etdim. Asudə vaxtımı boş keçirmədim. Hər dəqiqənin qədrini bilərək oxudum, öyrəndim. Elm öyrənməyi, müxtəlif fənlər üzrə olimpiadalarda iştirak etməyi hər şeydən üstün tutdum. Sevinirəm ki, tələbə olmaq üçün çəkdiyim əziyyət hədər getmədi. Topladığım 595 balla gələcəyim üçün ilk uğurlu addımı atdım. Tələbə adını qazandığım üçün çox sevinirəm. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almağı düşünürəm. Zamanın tələbi ilə ayaqlaşmaq üçün bundan sonrakı həyatımda da çalışacağam ki, kitablarla dostluğumu davam etdirəm. Çünki onlarla dost olmaq məni ən böyük arzuma çatdırıb.



***Ayşən Əbülfəzli:*** – Mən Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin məzunuyam. Qəbul imtahanında 577 bal toplayaraq məni sevənlərin sevincinə səbəb olmuşam. Bu gün orta məktəblərdə bizə yaradılan şəraitlə yanaşı, muxtar respublikamızda fəaliyyət göstərən universitetlər də biz gənclərə böyük ərməğandır. Çünki təhsil almaq üçün başqa yerə getməyimizə gərək yoxdur. Dünyanın ən qabaqcıl ölkələrindəki universitetlərdə olan şərait elə evimizin içindəcə yaradılıb. Buna görə də mən Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində təhsilimi davam etdirmək fikrindəyəm. Onu da qeyd etmək istəyirəm ki, bu gün ali məktəblərimizdə xarici dillərdə də təhsil verilir. Elə mənim seçdiyim ixtisasın ingilis dilində tədrisi kimi.

*Biz də elm, intellekt yolunu tutan və bu yolda ilk uğurlu addımlarını atan gənclərimizə daha böyük müvəffəqiyyətlər arzu edirik.*

**✍ Telli MƏMMƏDOVA**

## Adımı tut, harda dağlar dumansa...



*"Xalq şairi Məmməd Araz". Rəssamı Həbibə Allahverdiyeva*

***Dağların qoynunda əsrarəngiz təbiəti, zəhmətkeş, qonaqpərvər insanları ilə seçilən bir kənd var: Nursu. Bu kənd həm də ziyalıları, görkəmli elm adamları ilə tanınıb. Ancaq kəndin böyükdən-kiçiyə kimi hər bir sakininin qəlbinə, dilinə bir ad hakim kəsilib. Bu yerə ayaq qoyanlar da, bu kəndin adını eşidənlər də həmişə o insanı yad edir, onun şeirlərindən bir parçanı ya ürəyindən keçirib, ya da dilə gətirir. O, "Vətən mənə oğul desə, nə dərdim, mənə qayasında bitərdim", "Dünya sənin, dünya mənim, dünya heç kimin…", "Bu da belə bir ömürdü yaşadım", "Sən kimə gərəksən, mən kimə gərək", – deyən xalq şairi Məmməd Araz, onun şeiriyyətidir.***

"Bir payız günü, təbiət öz donunu dəyişəndə, durna qatarının asta-asta köç etdiyi, yarpaqların yavaş-yavaş saralıb xəzan selinə döndüyü bir vaxtda – oktyabr ayının 14-də kəndin sadə, zəhmətkeş insanlarından olan İnfil kişinin ailəsində doğulub Məmməd Araz. Ata ocağında kiçik yaşlarından nənəsi Zöhrə xanımın hafizəsində yaşayan folklor nümunələri, anası Cahan arvadın kövrək və səmimiyyət dolu sözlü-söhbətli dünyası ilə gələcək ədəbi həyata hazırlanmışdı. Nursunun havasını udub, suyunu içib, çörəyini yemişdi. Uşaqlıq və ilk gənclik illərini Batabat yaylağında, Çadırdaş ətəyində, Salvartı yaxasındakı obaların səs-küylü çağında, güllərin-çiçəklərin axar-baxarında keçirmişdi. Bu yurd yerinin saf təbiətində, dağların qoynunda böyüyüb ərsəyə çatdıqca təbiətin gözəllikləri, Vətən, yurd sevgisi şairin ruhuna hopurdu. Bəlkə, buna görə idi ki, o, bütün aləmə – Vətənə və dünyaya hər daşına, qayasına vurğun olduğu Şahbuzun – Nursunun dağlarından, yamaclarından, "ürəyinin bir parçası" adlandırdığı Naxçıvandan baxmışdır. "Mənim ürəyimin bir parçasıdır, doğma Şahbuzum da, Naxçıvanım da", – deyən Məmməd Arazın Şahbuz və Naxçıvan təkcə tərcümeyi-halının, həyatının deyil, yaradıcılığının da start nöqtəsi olmuşdur. Məmməd Araz sənətinin eniş-yoxuşlarını daim sinəsində hifz etdiyi həmin "dağ havası" ilə uğurla keçə bilmişdir.

Uşaqlığından təbiətə vurğunluğu idi onu şair edən. Ürəyində bitib-tükənməyən Vətən sevgisi yaradıcılığı boyu rəngarəng poeziyasının daş yaddaşı idi. Şair bu sevgini elə bil ki, sözlərlə heykəlləşdirir, misralarla əbədiləşdirirdi. O, Vətənin bir zərrəsinə, bir ələçim buluduna, balaca mamırına çevrilməyi özünə xoşbəxtlik sayırdı. Vətənə layiqli oğul olmaq istəyi onun yaradıcılığına həmişə gün işığı salırdı. Bəlkə, elə Araz dünyasından keçən yolu nurlandıran, işıqlandıran da bu istək böyük vətəndaşlıq sevgisi idi.

Şairin şeirlərini oxuyarkən elə bilirsən ki, misra qurtarsa da, fikir sərhədi sonsuz ümmandır. Zamanın ruhu, sanki bu sərhədlərdə keşik çəkir. Çünki şair sözün sehrini, sözün qüdrətini harada, necə işlətməyi yaxşı bilirdi. Əbəs yerə deyilməyib ki, söz əsl şair əlindədirsə, o, mütləq göyərəcək, qolqanad açacaq, onu gözləyənlərin ünvanına səssizcə yol alacaq. Əgər naşı əlindədirsə, minillik boz quma çevriləcəkdir. Elə söz əsl şair əlində olduğu üçün "göyərdi", dillərə düşdü, eldən-elə, kənddən-kəndə, şəhərdən-şəhərə yayıldı, eynilə uzaq-uzaq ölkələrdə yaşayan milyonlarla soydaşımızın ürəyinə yol tapdı.

Poeziyanın dumduru, şəffaf bulağı başına o, Arazın bulanıq və paralı sahilindən ayrılıb gəlmişdi elə bil. Özü ilə də poeziyaya Arazın dərdini, ağrısını gətirmişdi. Vətəndaş şair tarixdən və təbiətdən, ana dilindən, bayatıdan, folklordan ilham alaraq çağlayan Araza dönmüşdü. Təsadüfi deyildi "Araz" təxəllüsünü götürməyi. Ona görə götürmüşdü ki, bütün varlığı ilə Azərbaycana qovuşsun, onun əsl vətəndaşına çevrilsin. Elə istədiyi kimi də oldu, arzusu onu sonsuz bir ümmana – oxucu ürəyinə, oxucu yaddaşına çatdırdı.

*Gülüm, bir də görüşünə yubansam,*
*Adımı tut, harda dağlar dumansa.*
*Gözünü sıx, hansı daşda su yansa,*
*O daş altda Məmməd Araz yaşayır.*

Şairin yaradıcılığı, ilk növbədə, özünü ifadənin tərcümanıdır. "Harada, necə yazırdı?" kimi sualların cavabı onun şeirlərində, misralarında gizlənibdi sanki.

*"Məni şeirimdə gəz bir insan kimi,*
*Qəlbimdə nə varsa, ona demişəm.*
*Anadan-bacıdan gizlətdiyimi,*
*Kağızdan, qələmdən gizlətməmişəm",* –

deyən şair hər şeydən çox ömür köynəyindən keçirdiklərini qələmə almışdır.

Şeirləri də taleyi kimi bənzərsiz olduğundan Məmməd Arazı "tale şairi" adlandırırlar. "O özünü şeirin taleyi üçün cavabdeh sayırdı, yoxdursa sözünün kəsəri yazma", – deyirdi. Həssas, duyğulu bir ürəklə yaşamağı, yazmağı sənətkarın yeganə həyat meyarı, sənət zirvəsinin başlıca yolu adlandırırdı.

Görkəmli söz ustadı ağ vərəq üzərinə köçürdüyü hər bir kəlməsini Vətənə, onun mayasına, qayəsinə həsr edirdi. Öz doğma elinin, obasının tarixi keçmişini, coğrafiyasını, ədəbiyyatını, maddi-mənəvi irsini, dilini, dinini və fəlsəfi irsini hərtərəfli, yüksək səviyyədə bilir və onlara sahib çıxmağa çalışırdı. "Azərbaycan – dünyam mənim" şeirində yazırdı:

*Azərbaycan – mayası nur, qayəsi nur ki,*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər!!!*

Bir şair kimi Məmməd Arazın böyüklüyü onda idi ki, o bu fani dünyaya "Azərbaycan dünyasından" baxa bildi və oxucularını Ana Vətənin əbədiyaşarlığına inandırmağı bacardı. "Vətənsiz insan köksüz budaqdır və kökü olmayan hər canlı məhvə məhkumdur" həqiqətini həmvətənlərinə təlqin etdi. Ona görə də bu gün Azərbaycan Məmməd Araz poeziyasında daha uca, daha gözəl və daha məğrur görünür...

Əsrimizin səsli-küylü bu zamanında söz üstündə qulağımıza gələn bir Məmməd Araz şeirini, bir Məmməd Araz misrasını eşitmək də, dinləmək də xoşdur. Keçmişin qəhrəmanlıqlarını və qəhrəmanlarını Araz körpüsündən keçirib dünənimizlə bu günümüzü birləşdirən Məmməd Araz poeziyasında cənginin sədaları eşidilir. Nalından od çıxan kəhərlərin yerişləri, qılıncların toqquşması, igidlərin şücaəti şairin söz yükü tutmuş poeziyasında elə bil ki, əks-səda verir. Elə "İnsan-qayalar" şeirində olduğu kimi:

*....Siz ey qədim əfsanələr,*
*Şeirimə yağ, səsimə yağ!*
*Nə zamansa bu daşlarla*
*bir dil tapan tapılacaq –*
*Bu daşların, qayaların*
*keçmişini oyadacaq,*
*Ordu-ordu qayalıqlar*
*insanlığa qayıdacaq.*
*Bu basılmaz nərlər-ərlər,*
*Bu qaya sərkərdələr*
*Onda məni – bir balaca daş əsgəri*
*qoyar yaqin qoşulmağa bu cərgəyə,*
*Qayaların keçmişini*
*qayalara yazdım, deyə.*
*Onda Vətən sanar məni*
*Bir balaca Vətən daşı,*
*Vətən daşı olmayandan*
*olmaz ölkə vətəndaşı...*

Sənətkarı el gözündə yüksəldən, ona mənəvi yaşam haqqı verən alqış, sərvət kimidir. Ömrüboyu yaratdıqları ilə alqışlandı, el məhəbbətilə yaşadı Məmməd Araz. Məmməd Araz yaradıcılığı boyu nə etdisə, "Vətəni sevmək naminə, ucaltmaq naminə" etdi. Sözlə həm Vətəni ucaltdı, həm də özü ucaldı.

**Turanə BAXŞƏLİYEVA**
***"Oğuz səsi" qəzetinin məsul katibi***

***27 sentyabr 2020-ci il tarixdə Dağlıq Qarabağda 30 ildən artıq bir müddətdə qövr eyləyən bir yaranın qaysağı qopdu. Elə həmin gün qəhrəman Azərbaycan əsgəri öz şücaətini göstərdi, nəyə qadir olduğunu sübuta yetirdi. Ordumuzun qüdrəti qarşısında tab gətirməyən düşmən uzun illərdir, möhkəmləndirdiyi səngərlərini, döyüş postlarını buraxıb qaçdı, yüzlərlə erməni silahlısı məhv edildi. Bu döyüş zamanı əsgərlərimiz dillərə dastan olacaq mətanət göstərdilər, Qarabağın heç bir zaman düşmənə güzəştə gedilməyəcəyini sübuta yetirdilər.***

*Əfsanəyə dönən ömürlər*

## Ölümsüzlük zirvəsi – şəhidlik



Əvvəllər adi yüngül bir silahdan atılan güllə, partlayan mina səsi cəbhə bölgəsindəki insanları təşvişə salırdısa, həmin günlərdə ətrafa yayılan yaylım atəşləri, top mərmilərinin səsləri heç bir qorxuya səbəb olmurdu. Sakinlər yaşadığı kəndi tərk etmək istəmirdi, qadın, uşaq, ağsaqqal, ağbirçək başlarının üstündən gurultu ilə keçən mərmilərdən qorxmayıb onların düşmənin mövqelərini sərrast vurmağını gözləyirdilər. Düşmən mövqeyinə hər düzgün atılan mərmi cəbhədəki əhali tərəfindən sevinclə, alqışla qarşılanırdı. Hər kəsin ürəyi cəbhədə, səngərdə döyündü. 44 gün gecə-gündüz cəbhəboyu bütün Azərbaycan – heç kim gözünü bir an belə, yummadı. Həmin günlərdə Azərbaycanın hər evi səngərə, hər vətəndaşı əsgərə çevrildi. Gələn xəbərlər insanlara sevinc hissləri ilə bərabər canını Vətən torpağına qurban verən igidlərin şəhadət üzüntüsünü də yaşadırdı. Heç bir qələbə itkisiz olmur, təbii ki, Böyük Zəfər də igid oğullarımızın canı bahasına qazanıldı. Hərəsi bir evin madarı, bir ananın göz nuru, bir bacının qardaşı, bir gözəlin adaxlısı olan igidlər Vətən torpağının bir qarışını belə, öz canlarından üstün tutdular. Onlar öz qəhrəmanlıqları ilə adlarını tarixin qızıl səhifələrinə yazıb düşmənə bir daha sübut etdilər ki, bu torpağın hər qarışı bizim üçün əzizdi və heç vaxt güzəştə gedilməyəcək. Onlar bizim fəxrimiz, baş ucalığımız, ömürlük həsrətimiz oldular. Yüksəldikləri zirvə ilə ölümsüzlüyə qovuşan oğulların sayəsində bu millət, bu xalq başını dik tutur. Onlardan biridir qədim Sədərəyin dəmir iradəli oğullarından olan Rüfət Gözəlov. Anası Ruhəngizin görən gözü, bacısı Lətifənin döyünən ürəyi, qardaşı Nihadın dayağı. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalan Rüfət Şuşa döyüşlərinin qəhrəmanlarından biridir. Ruhəngiz ana deyir ki, biz şəhid anaları təkcə öz övladımızın yox, bütün şəhid oğullarımızın anasıyıq. Onlar bizim qəlbimizin sönməyən atəşi, həm də qürurudur. Rüfətin yaşı az olsa da, vaxtından əvvəl ev qayğılarına bürünmüşdü. Evimizin nə işi olsa, qardaşı ilə bir həll edərdi. Balamın o qədər saf ürəyi var idi ki, şəhidlik zirvəsinə belə, yüksələcəyini yuxusunda görmüşdü. Həmişə deyirdi ki, Qarabağ işğaldan azad ediləndə kimi, ordudan tərxis olunmayacağam. Bizim generalımız şəhid olub, onun qisasını almalıyıq ki, başımızı dik tuta bilək. Balam öz arzusuna çatdı, aldılar generalın da qisasını, vaxtilə düşmən gülləsi ilə vəhşicəsinə qətlə yetirilən vətəndaşlarımızın da. Bir gün gələcək, hər kəs köçüb gedəcək bu dünyadan, onlar isə əbədi yaşayacaq bu xalqın, bu millətin yaddaşında. Bircə təsəllim budur ki, o öz ölümü ilə əbədiyyət qazandı. Oğlumun adı öz əməli ilə tarixə yazıldı.

"İgid bir qardaşın bacısı olmaq şərəfli və qürurludur. Rüfət öz igidliyi ilə tarixboyu yaşayacaq. O və onun kimi oğullar öz igidliyi ilə tarix yazdı. İllər öncə təhqirə məruz qalan azərbaycanlı qızların qisasını aldılar. Bilirəm ki, qardaşımın ruhu şaddır, çünki onun uğrunda canından keçdiyi torpaqlar azaddır. Orada artıq Azərbaycan əsgəri addımlayır", – deyir Lətifə. Onu da bildirir ki, qardaşı 1996-cı il martın 17-də Sədərək rayonunun Dəmirçi kəndində anadan olub. Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Şərur şəhər Şəhidlər xiyabanında dəfn olunub. Orada igid qardaşları ilə birgə uyuyur. Qələbəni bizə yaşadan igidlərlə birgə. Hər dəfə qardaşımı ziyarətə gedəndə onun və yoldaşlarının məzarları başında insanları – gəncləri görürəm. Onların heç birinin bizimlə qan qohumluğu olmasa da, gəlib ziyarət edirlər hər bir şəhid məzarını. Onların önündə baş əyirlər, dualar edirlər. Deyirlər, şəhidin doğması, yadı olmur axı. Hər bir şəhid qəlbimizə düşən bir qordur. Bu Vətən, bu dövlət yaşadıqca onlar da yaşayacaq.

İgid Vətən oğlunun qardaşı Nihad deyir ki, Rüfət öz işinə o qədər ürəkdən bağlı idi ki, istirahət günlərində belə, idman məşğələlərinə gedir, hərb sənəti haqqında mütaliələr edirdi. Nihad onu da bildirir ki, qardaşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Şuşanın, Xocavəndin, Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib. Dövlətimizin qayğısını hər an hiss edirik. Silahlı Qüvvələr günündə mənzillə təmin edilməyimiz də bu qayğının təzahürüdür. Dövlətimizə minnətdarıq.

Ordumuzun bu döyüşlərdə qazandığı şanlı zəfərdən sonra hər şey gün kimi aydın oldu, qazanılan qələbə qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı. 44 gün ərzində gedən qanlı döyüşlərdə əldə etdiyimiz qələbə xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Silahlı Qüvvələrimiz düşmənə və onun havadarlarına öz gücünü göstərdi. Bildirdi ki, bu Vətən bölünməzdir, onun hər qarışı igid qanı ilə sulanar, amma düşmənə bir qarış güzəştə gedilməz.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Uşaqlara tamaşa göstərilib



Naxçıvan Muxtar Respublikasında bütün uşaqlara, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir. Onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarını təmin etmək diqqət mərkəzində saxlanılır. Həmçinin yay tətili günlərində onların asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində bir sıra işlər görülür.

Bu istiqamətdə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə aztəminatlı, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud 25 uşağa Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Nağı İsmayılzadənin "Ağca və Bozca" tamaşası nümayiş olunub.

Uşaqlar teatrdan xoş təəssüratla ayrılıblar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*İtmişdir*

Əliyev Dilqəm Arif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Yusifov Cəmil Eldəniz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 698